iki sahil

# 26 baharlıq ömür...




Milli davamız - Vətən savaşımız Ali Baş Komandanımızın dəmir yumruğu, məğrur xalqımızın yumruq kimi birləşməyi, müzəffər Ordumuzun dünyaya səs salan şanlı Zəfəri, milli birlik və düşüncə bütövlüyümüzün təntənəsi olaraq tarixə çevrildi. Uca məmləkətimizi Zəfərə aparan 44 günlük qutsal yol təkcə Vətənin bütövləşməsi, Qarabağın azadlığı kimi yox, həm də dünya hərb tarixində Azərbaycan Ordusunun rəşadətini və misli görünməmiş döyüş taktikasını isbatlamış oldu. Hər hansı bir zaman kəsiyində müəyyən bir millətin şərəfini qoruyan insanlar - həmin millətin tarixini yaradanlardır. Belə insanlar cəsarət simvoluna çevrilir, onların yaşamı və ölümü millətin ruhuna, yaddaşına həmişəlik həkk olunur.

Millətin çiynindəki 30 illik əsarət yükünü qaldıran, alnında şırım salmış qeyrət ləkəsini təmizləyən, qanıyla təqvimimizdəki qara haşiyələnmiş işğal tarixlərini söküb atan və onu al qırmızı Zəfər Gününə dönüşdürən, düşmənə qan udduran, qanıyla tarix yazan, adını tarixə yazan, qeyrətli oğullardan biri - Vətən savaşında Milli Ordumuzun rəşadət simvoluna çevrilən, qeyri-adi iradə, fədakarlıq, yaşından böyük igidlik göstərən Vətən müharibəsi qəhrəmanı Azər Nazim oğlu Yusifli mətinliyi, yaralı-yaralı döyüşməsi, özü yaralı olduğu halda yaralanmış döyüş yoldaşlarını çiyninə alaraq kilometrlərlə məsafə qət edərək meydanından çıxarması, son nəfəsinə, hətta sonuncu gülləsinə qədər döyüşməsi ilə yaddaşlarda və ürəklərdə iz qoydu.

Yusifli Azər Nazim oğlu... Yurdumun ər qeyrətli tarix yazan mərd oğlu!

1994-cü il martın 28-də Ağstafa rayonu Böyük Kəsik kəndində ziyalı ailəsində anadan olmuşdur. Azər körpə yaşlarından elə vətənpərvər ruhda tərbiyə olunmuşdu ki, ta uşaqlıqdan hərbçi olmaq arzusuyla böyüyürdü. 2012-ci ilin aprelində hərbi xidmətə yollanmış, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 11-ci bölüyündə kiçik çavuş rütbəsində xidmət etmişdir. Hərbi xidmətini bitirdikdən sonra sənədlərini işləmək üçün Sərhəd Qoşunlarına təqdim edir və işə qəbul olunur. Sərhəd xidmətində fəaliyyətə Cəlilabad rayon Göytəpə sərhəd dəstəsinin "N" saylı hərbi hissəsində başlamış, dəfələrlə xidmətlərinə görə hərbi hissənin komandiri tərəfindən, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general -polkovnik Elçin Quliyev tərəfindən Fəxri fərmanlar və medallarla mükafatlandırılmışdır. Hərbi döyüş hazırlığında, idman hazırlığında xüsusilə fərqləndiyinə görə Azəri Mərdəkanda yerləşən Sərhəd Qoşunlarına məxsus xüsusi təyinatlı dəstəyə göndərmişlər. Orada keçirilən döyüş təlimlərinə və taktiki, texniki fəaliyyətlərinə görə Azər xüsusilə fərqlənirmiş. Tovuz döyüşləri zamanı xüsusi təyinatlı dəstədə kəşfiyyatçı kimi fəaliyyətə başlamış, dəfələrlə kəşfiyyatçı kimi düşmən arxasınca 20-30 kilometrlərlə məsafəni çətin və keçilməz ərazilərə keçmişlər. Vətən müharibəsi başlayanda Sərhəd qoşunlarına məxsus, xüsusi təlim keçmiş xüsusi təyinatlı kəşfiyyat dəstəsi bütün torpaqların azad olunmasında öndə getmişlər. Azər Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı, Zəngilanın azad edilməsində böyük şücaət və qəhrəmanlıq göstərmişdir.



**Xəyalə Zərrabqızı,**
*filologiya üzrə fəlsəfə doktoru*

Müharibənin ilk həftəsində Azər yaralanır və hospitalda müalicə almalı olur. Həkimlər deyir ki, biz gecəni növbə çəkdik, onu saxlaya bilmədik. Səhər açılanda özü yaralarını sarıyıb döyüşə - cəng meydanına qayıdır Azər. Bu sadəcə hünər işi deyil, bunun üçün həm də Vətəni sevən böyük ürək lazımdır.

İndi bütün dünya mətbuatı Qarabağda tarix yazan oğulların mərdliyindən yazır: "Belə döyüş, Vətən sevgisi görən olubmu, demək çətindir?! Həlak olmuş yoldaşı çiynində, döyüşə-döyüşə, qan tər içində irəliləyirdi Azərbaycan Ordusu. Nə yaralını, nə də şəhidi çiyinlərindən yerə qoymurdular..." Bəli, bəşər tarixi nə belə ordu, nə belə ordu yetişdirən Ali Baş Komandan, nə belə məğrur döyüşçü, nə belə döyüş, nə də belə zəfər görmüşdü...

Son döyüşdə ermənilərlə qeyri-bərabər qüvvə ilə vuruşurlar. Kiçik bir kəşfiyyat dəstəsi ermənilərin 37 nəfər əsgər və zabitini əsir götürür, 42 nəfərini isə öldürürlər. Həmin döyüşdə Azər son nəfəsinə qədər qəhrəmanlıqla vuruşur və şəhadətə yüksəlir...

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Azər Nazim oğlu Yusifliyə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş, həmçinin cənab Prezidentin 15 dekabr 2020-ci il tarixli Sərənacamına əsasən ən ali dərəcəli "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Hər bir insan ömrü bütöv bir təcrübədir. İnsanların ömür yoluna nəzər salanda bəzən adama elə gəlir ki, hamı bir - birinin yaşamını təkrarlayır. Amma Azər gənc yaşında bənzərsiz bir ömür yaşadı və mən düşünürəm ki, onun ömrü bu məmləkətdə nəsil-nəsil insanlardan ötrü bənzərsiz bir örnək, əvəzsiz bir nümunə olacaq - namus, qeyrət, şərəf, ləyaqət, kişilik, mərdlik və fədakarlıq nümunəsi...

Döyüş yoldaşlarının çəkdiyi çox təsirli bir videogörüntü var. Zəngilan azad edildikdən sonra Azər bir məktəb binasına daxil olur. Hayların bayrağını və özlərinə "milli qəhrəman" elədikləri Monte Melkonyanın şəklini divardan söküb ayaqlarının altına atır və tapdalayır. Daha sonra zaman - zaman türkün tarixini və coğrafiyasını mənimsəyən oğru millətin tarixi abidələrinin sərgiləndiyi bir divar kağızına doğru gedir. Hayların xülyalarında, miflərində yaratdıqları "böyük Ermənistan" xəritəsini və tarixi abidələrin şəklini divardan söküb ayaqlayıb əzdikcə "Bu da şərəfsizlərin məktəbi" deyir.

Döyüş yoldaşları deyir ki, Azər hər erməni öldürdükcə "Bu da Xocalının hayıfı" deyirdi. Çox cəsur döyüşçü idi. Elə döyüşlərin birində təkbaşına düşmənin 4 zirehli texnikasını və 30-dan çox canlı qüvvəsini məhv etmişdir. Azəri gənc yaşında ən çox sarsıdan, yandıran bir məqam Xocalıda günahsız körpələrin, əliyalın qocaların, hamilə qadınların, ana - bacılarımızın başına gətirilən izahagəlməz müsibətlər idi. Və Azər Xocalının qisasını almağı özünə həyat qayəsi seçmişdi.

Ən böyük arzusu şəhidlik zirvəsinə - şəhadət məqamına ucalmaq idi, amma qisas alınandan sonra. Dediyini etdi, əqidəsindən və yolundan dönmədi, qisasını aldı və şəhid oldu.

Bayraq Azər üçün torpağın özü qədər müqəddəs idi... Silahdaşı - Vətən müharibəsi iştirakçısı, Dövlət Sərhəd Xidmətinin baş giziri Cavidan Səfərov deyir ki: "Bu kəndi azad edirdik, sevincək qalxır, bayrağımızı asır, digərini səliqə ilə qatlayıb sinəsinə - ürəyinin üstünə qoyardı Azər, bunu da qarşıdakı azad edəcəyimiz yerdə asacağam, deyirdi. Azad etdiyimiz ərazilərdən 26 yerdə bayrağı şəxsən özü sancdı, o şəhid olanda döş cibində bir bayraq vardı, həmin bayrağı uşaqlar Azərin əmanəti - Azərin nişanəsi kimi Qubadlıda ucaltdılar.

Gecə Zəngilana girdik, ağır döyüşlər oldu, Zəngilanı azad etdikdən sonra qalxdıq prokurorluq binasının üstünə, gecənin qaranlığında binanın üstdəki hayların bayrağını söküb yerə atdı, "qurban olum üçrəngli bayrağımıza" deyib öpdü bayrağımızı, Zəngilan Rayon Prokurorluğu binasının üstünə fərəhlə sancdı...

Həmin gecə... Zəngilanı azad etdiyimiz gecəydi... "Cavidan, elə bil yenidən doğuldum, elə bil yenidən gəldim dünyaya...", - dedi... Gözlərində qeyri-adi bir sevinc vardı, izaholunmaz dərəcədə xoşbəxt idi... Və ondan bir neçə saat sonra çox ağır bir döyüşdə qarşı-qarşıya vuruşdu, arada heç bir məsafə yox idi, sanki əlbəyaxa döyüş gedirdi, çox böyük mərdliklə, qəhrəmanlıqla, son nəfəsinə qədər düşmənin bütün həmlələrini dəf edib, şəhidlik zirvəsinə ucaldı Azər..."

Vətən, torpaq, böyük amallar və müqəddəs, qutsal bir qayə uğrunda candan keçmək, özünü şüurlu şəkildə fəda etmək... Tanrının verdiyi ömür payını Vətənin və gələcək nəsillərin firavanlığına bağışlamaq... - Ölüm var ki, həyat qədər dəyərli... - dedikləri yəqin elə budur - şəhadət məqamı...

Azər cəmi 26 baharlıq ömür yaşamışdı. İndi azad etdiyi Qarabağın aydın səmasında Azərin nişanəsi, yaşının sanı qədər ucaltdığı 26 bayraq dalğalanır...

Ruhu şad olsun!